DOI: https://doi.org/10.36719/0857/01/88-92

**Aydan Davudzadə**
Azərbaycan Dillər Universiteti
Magistr
https://orcid.org/0009-0001-5786-7989
aydan.davudzade01@gmail.com

# Azərbaycan ümumtəhsil məktəblərində ingilis dilinin tədrisində rəqəmsal pedaqoji texnologiyaların kommunikativ səriştənin formalaşması və inkişafına təsiri

## Xülasə

Müasir təhsil mühitində rəqəmsallaşmanın artması orta məktəblərdə xarici dilin tədrisində yeni metod və vasitələrin tətbiqini zəruri edir. Bu məqalə Azərbaycan ümumtəhsil orta məktəblərində ingilis dilinin tədrisində rəqəmsal pedaqoji texnologiyaların istifadənin şagirdlərdə kommunikativ səriştənin formalaşmasına və dil bacarıqlarının sonrakı dövrlərdə daha da təkmilləşdirilməsinə təsirini araşdırmağa həsr edilmişdir. Məqalədə ingilis dilinin tədrisində istifadə edilə biləcək müasir rəqəmsal pedaqoji texnologiyaların müxtəlif növləri və onlara aid nümunələr, həmçinin mövzu ilə bağlı eksperimental tədrisin gedişatı və nəticələri öz əksini tapmışdır.

Bu tədqiqat 8-ci sinif şagirdləri üzərində aparılmış eksperimental dizayna əsaslanır. Eksperimental qrupda dərslər rəqəmsal alətlər vasitəsilə, nəzarət qrupunda isə ənənəvi üsullarla həyata keçirilmişdir. Əldə etdiyimiz nəticələr onu göstərir ki, rəqəmsal texnologiyaların tətbiqi şagirdlərdə dil bacarıqlarının və kommunikativ kompetesiyanın komponentlərinin formalaşmasına və inkişafına, eləcə də onların dərsə motivasiyasının yüksəlməsinə müsbət təsir göstərmişdir. Tədqiqatın nəticələri sübut edir ki, rəqəmsal pedaqoji texnologiyalar ingilis dilinin tədrisində kommunikativ yönümlü mühitin yaradılmasına və şagirdlərin dil bacarıqlarının daha effektiv formalaşmasına şərait yaradır.

***Açar sözlər**: rəqəmsal pedaqoji texnologiyalar, ingilis dilinin tədrisi, kommunikativ səriştə, interaktiv tədris, rəqəmsal təhsil mühiti.*

**Aydan Davudzada**
Azerbaijan University of Languages
https://orcid.org/0009-0001-5786-7989
aydan.davudzade01@gmail.com

# The Influence of Digital Pedagogical Technologies on the Formation and Development of Communicative Competence in English Language Teaching in Azerbaijani Secondary Schools

## Abstract

The increasing digitalization in the modern educational environment necessitates the application of new methods and tools in the teaching of foreign languages in secondary schools. This article is dedicated to researching the impact of the use of digital pedagogical technologies in teaching English in Azerbaijani general secondary schools on the formation of communicative competence and the further improvement of language skills of students in subsequent periods. The article reflects various types and examples of modern digital pedagogical technologies that can be used in ELT, as well as the process and results of experimental teaching on the topic.

This research is based on an experimental design conducted on 8th-grade students. In the experimental group, lessons were carried out using digital tools, while in the control group, traditional methods were used. The results show that the application of digital technologies had a positive impact on the formation and development of language skills and components of communicative competence

in students, as well as on increasing their motivation for the lesson. The results of the research prove that digital pedagogical technologies create conditions for the creation of a communicative-oriented environment in the teaching of English and the more effective formation of students' language skills.

***Keywords**: digital pedagogical technologies, English language teaching (ELT), communicative competence, interactive teaching, digital learning environment.*

## Giriş

Müasir dövrdə ingilis dilinin beynəlxalq arenadakı mövqeyi bu dilin dərindən mənimsənilməsini, o cümlədən ən müasir metod və vasitələrlə tədrisini zəruri edir. Xüsusilə, orta məktəbdə təməli qoyulan və təkmilləşdirilməsi üçün daha çox zaman və imkan olan kommunikativ səriştənin rəqəmsal pedaqoji texnologiyalar vasitəsilə tədrisi şagirdlərin qlobal cəmiyyət üçün zəruri olan qabaqcıl dil biliklərinə yiyələnməsinə öz töhfəsini verir. Bu gün Azərbaycan təhsil sisteminin Avropa təhsil sisteminə inteqrasiyası təhsil sistemində yeni təlim texnologiyalarından, fəal və interaktiv təlim metodlarından, həmçinin rəqəmsal pedaqoji texnologiyalardan istifadəni zəruri edir.

**Tədqiqat**

Bu tədqiqatda pedaqoji texnologiya anlayışı təlim prosesində müəllim və şagird arasında planlı qarşılıqlı fəaliyyətin təşkilinə əsaslanan didaktik sistem kimi şərh oluna bilər. Xarici dilin tədrisində müasir pedaqoji texnologiyalardan istifadə şagirdin dil öyrənmə prosesində öz məsuliyyətini dərk edərək dərs prosesində fəal iştirak etməsinə, dil öyrənmənin yalnız müəllimin təlimatlarından ibarət olmadığını, interaktiv bir proses olduğunu və həmin dildə ünsiyyətin əhəmiyyətini anlayaraq öz üzərində daha çox çalışmasına şərait yaradır. Dil tədrisi zamanı rəqəmsal pedaqoji texnologiyalardan istifadə də bu istiqamətə yönəlməlidir.

Tədris prosesində, xüsusilə də xarici dilin tədrisində istifadə edilə bilən, şagirdlərin ünsiyyətqurma bacarıqlarını, fəallığını artıran və məntiqi təfəkkürünü inkişaf etdirən, ən əsası, dövrün tələblərinə uyğun olaraq rəqəmsal texnologiyalara çevrilə bilən müasir metodların bir çox növləri mövcuddur. Bunlardan bəzilərini mahiyyətinə və məqsədinə görə bu şəkildə qruplaşdıra bilərik:

1. “Beyin həmləsi” (əqli hücum və ya fikirlərin hücumu) metodları: KWL (“what I **know**”, “what I **want** to know”, “what I **learned**” – BİBÖ (bilirəm, istəyirəm bilim, öyrəndim)), auksion, klaster (şaxələndirmə), söz assosiasiyaları, insert.
2. Müzakirə metodları: diskussiya, debatlar, müzakirə xəritələri, dəyirmi masa, Sokrat üsulu, akvarium.
3. Rollu oyunlar metodları: rollu oyun, modelləşdirmə, səhnələşdirmə.
4. Prezentasiya metodları: təqdimatlar, esse.
5. Tədqiqatın aparılması metodları: kublaşdırma, konkret hadisənin araşdırılması, Venn diaqramı, lahiyələrin hazırlanması, sorğu vərəqləri və müsahibələr, qərarlar ağacı, ideyalar xalısı, refleksiya.
6. Təşkilati metodlar: ziqzaq, karusel.

Xarici dil tədrisində yeni pedaqoji texnologiyalardan istifadə şagirdlərdə xarici dildə kommunikativ səriştənin komponentlərinin (linqvistik, sosiolinqvistik, sosial-psixoloji, strateji, diskursiv) formalaşmasına və inkişafına olduqca müsbət təsir göstərir. Bundan əlavə, dil dərslərində istifadə olunan müasir təqdimatlar, mətn redaktorları, elektron cədvəllər, onlayn testlər, tərcümə proqramları, elektron dərsliklər, elektron lüğətlər və başqa internet resursları (bloqlar, podkastlar və s.) autentik materiallarla zəngin olduğu üçün xarici dil tədrisində mühüm rol oynayır.

Şagirdlər üçün əlçatan olan başqa rəqəmsal vasitələr də mövcuddur, məsələn, Google şirkətinin təklif etdiyi pulsuz interaktiv funksiyalardan istifadə etməklə hazırlanmış materiallar şagirdlərin virtual öyrənmə mühitində iştirakını təmin edə bilər. Xarici dilin tədrisində istifadə edilə bilən həmin interaktiv funksiyalardan bəzilərinə nəzər salaq:

1. **Google Jamboard** adlı onlayn interaktiv lövhə vasitəsilə müəllim, demək olar, ənənəvi lövhədə həyata keçirdiyi bütün əməliyyatları icra edə bilər. Qələm, silgi, rəngli stikerlər, mətn qutusu və müxtəlif qrafik təsvirlərdən istifadə etməklə müəllim və şagirdlər həmin lövhə üzərində sinxron şəkildə müxtəlif çalışmalar üzərində işləyə, həmçinin bir-birinin yazılı sual və cavablarını izləyə

bilərlər. Bunun üçün sadəcə olaraq müəllim öz lövhəsinin linkini şagirdlərlə paylaşmalıdır.

2. **Google Slide** funksiyası vasitəsilə müxtəlif məzmunlu təqdimatlar hazırlamaq, hazırlanmış təqdimatlara düzəliş etmək, onları istənilən şəxslə paylaşmaq və interaktiv şəkildə slaydlar üzərində işləmək mümkündür. Google Slide funksiyası vasitəsilə müəllim öz hazırladığı və tədris prosesində istifadə etmək istədiyi təqdimatları şagirdlərə göndərə və onları həmin təqdimatlar üzərində birlikdə işləməyə sövq edə bilər. Şagirdlər onlayn şəkildə müəllimin təqdim etdiyi sualları həmin anda yazılı şəkildə cavablandırdıqları zaman müəllim həmin cavabları və ümumilikdə şagirdlərin həyata keçirdiyi əməliyyatları izləyə bilir.

3. **Google Forms** funksiyası açıq və qapalı tipli onlayn sorğuların hazırlanmasına imkan verir. Müəllimlər həftəlik, aylıq və ya rüblük test yoxlamaları hazırlamaq üçün Google Forms-dan istifadə edə bilərlər. Bu zaman onlar hər bir şagirdin verdiyi cavabdan əlavə, ümumi cavablar faizini də görüb izləyə bilirlər.

Bütün bunlardan əlavə, ingilis dilinin tədrisində istifadəyə olduqca yararlı olan bir sıra onlayn tədris platformaları mövcuddur. Xüsusilə dörd dil bacarığının və kommunikativ səriştənin aspektlərinin birlikdə inkişaf etdirilməsi məqsədilə tədris prosesində interaktivliyi və effektivliyi artıran aşağıdakı rəqəmsal tədris platformalarından bütün dünyada geniş şəkildə istifadə edilir:

o İnteraktiv təqdimat aləti kimi istifadə edilən ***Pear Deck*** platformasında müəllimlər şagirdlər üçün təqdimat formasında nümayiş etdirilə bilən çalışmalar, yaxud suallar hazırlaya bilərlər. Lakin bu platformada müəllim qeyd edilən cavabların hansı şagirdə məxsus olduğunu görə bilmir, yalnız cavabları ümumi şəkildə görür. Beləliklə şagirdlər öz fikirlərini daha sərbəst şəkildə ifadə edir və daha sonra öz düzgün və yanlış cavablarını görüb nəticə çıxara bilirlər. Pear Deck platforması dərs zamanı real vaxtda şagirdlərin cavablarının operativ toplanmasına imkan verdiyi üçün formativ qiymətləndirmədə səmərəli şəkildə istifadə oluna bilər.

o ***MOO (Multy user, Object-oriented)*** texnologiyası simulasiyalardan ibarət çoxistifadəçili və obyektyönümlü bir virtual mühitdir. Obyektlərlə qarşılıqlı əlaqə yaratmağın mümkün olduğu bu rəqəmsal texnologiyadan şagirdlər həm əyləncə, həm də dilöyrənmə məqsədilə istifadə edirlər. Bu texnologiyanın bəzi növlərində dilöyrənənlərin dünyanın müxtəlif yerlərindən bir-biri ilə ünsiyyət qurmaları üçün təşkil edilmiş xüsusi "zonalar" vardır.

o ***Seesaw*** təhsil platforması vasitəsilə müəllimlər şagirdləri yaradıcı tədris materialları hazırlamağa, hazırladıqları bu materialları digər şagirdlər və müəllimlərlə paylaşmağa və beləliklə, əməkdaşlığa sövq edirlər. Şagirdlər müxtəlif formatlı materiallardan (şəkillər, videolar, linklər, PDF fayllar, qeydlər və s.) istifadə etməklə öz biliklərini nümayiş etdirə və həmin materialları bu platformadakı şəxsi jurnallarına əlavə edə bilərlər.

o ***Bookcreator*** aləti mətn, şəkil, audio və video fayllarından istifadə etməklə interaktiv hekayələr, rəqəmsal portfoliolar, tədqiqat jurnalları, şeir kitabları, elmi hesabatlar, təlimat kitabçaları və s. yaratmağa imkan verir.

o Orta məktəb şagirdlərində oxu bacarıqlarının inkişafına istiqamətləndirilmiş ***Raz-Kids*** interaktiv tədris portalı dil öyrənən oxucularına 29 oxu səviyyəsini əhatə edən 800-dən çox elektron kitab və digər oxu resursları təklif edir. Bu portalda şagirdlər elektron kitabları onlayn şəkildə oxuya, onların audio variantlarını dinləyə, öz səslərini yazıb qeydə ala, həmçinin kitablarla bağlı suallardan ibarət onlayn sınaqda iştirak edə bilərlər.

o Əvvəllər *Wall Wisher* kimi tanınan ***Padlet*** texnologiyası vasitəsilə onlayn "bülleten lövhəsi" yaratmaq mümkündür. İstifadəçilər istədikləri mövzunu seçib bülleten yarada, öz onlayn lövhələrində digər istifadəçilərin də görməsi üçün üçün şəkillər, videoçarxlar, audio fayllar, hiperlinklər yerləşdirə və öz səslərini qeydə ala bilərlər.

o Avstraliyalı müəllimlər tərəfindən yaradılmış ***Studyladder*** platforması 4-12 yaşlı uşaqlar üçün müxtəlif fənnlərə aid bir çox ödənişsiz resurslar, videolar, çalışmalar, interaktiv oyunlar, qiymətləndirmə testləri və başqa fəaliyyət növlərini əhatə edən onlayn tədris proqramıdır. Məktəb rəhbərliyi, müəllimlər və valideynlər şagirdlərin iştirak etdiyi həmin fəaliyyətləri asanlıqla izləyə və onların nəticələrinə nəzər sala bilərlər.

o 5-15 yaşlı uşaqların istifadə edə biləcəyi minlərlə keyfiyyətli resursdan ibarət rəqəmsal oxu platforması olan ***Epic*** platformasında hər dil səviyyəsinə, hər yaşa və hər mövzuya uyğun, istər elmi,

istərsə də əyləncəli oxu materialı tapmaq mümkündür. Uşaqlar istədikləri yerdə və istədikləri zaman öz maraqlarına uyğun elektron kitabları oxuya, audiokitablara qulaq asa və təlim videolarını izləyə bilərlər.

Ümumtəhsil məktəblərində ingilis dilinin tədrisində rəqəmsal pedaqoji texnologiyaların kommunikativ səriştənin formalaşması və inkişafına təsirini ətraflı şəkildə araşdırmaq üçün eksperimental tədrisə üz tutduq. Eksperimental tədris orta məktəbin 8-ci sinif şagirdləri arasında üç mərhələdə həyata keçirilmişdir:

- I mərhələ - müəyyənedici eksperiment
- II mərhələ - öyrədici (formalaşdırıcı) eksperiment
- III mərhələ - yoxlayıcı eksperiment

| |
|---|
| Sinif: 8g (kontrol sinif) |
| Dərsin mövzusu: Nida cümlələri (Exclamatory sentences) |
| Dərs növü: Yeni materialın mənimsənilməsi |
| Dərsin məqsədi və tapşırıqları: İngilis dilində nida cümlələri ilə bağlı biliklərin təkmilləşdirilməsi, dərslik çalışmaları (uyğunlaşdırma, boşluqları doldurma, cümlə qurma və s.) |
| Təhsil formaları: Sinif işi |
| Tədris metodları: İnduktiv metod, qrammatik tərcümə metodu |
| Dərsin təşkili forması: Ənənəvi forma |
| Resurslar: Dərslik, çalışma kitabçası |

Kontrol dərs adi qayda üzrə, yalnız fənn kitabına müraciət edilərək, heç bir əlavə materiallardan istifadə edilmədən aparılmışdır. Şagirdlərin çoxu qənaətbəxş şəkildə tapşırıqların öhdəsindən gəlsələr də, dərsdə yeni pedaqoji texnologiyalardan istifadə etmədiyimiz üçün bəzi şagirdlər diqqətlərini toplamaqda çətinlik çəkərək çalışmaların müzakirəsində və sual-cavabda fəal şəkildə iştirak etməkdən çəkindilər. Nəticə olaraq, dərsi mümkün qədər maraqlı şəkildə aparmağa çalışsaq da, ənənəvi üsulla təşkil edilmiş dərs prosesində monotonluq hiss olunurdu.

| |
|---|
| Sinif: 8ə (eksperimental sinif) |
| Dərsin mövzusu: İngiltərədə qeyd edilən bayramlar |
| Dərs növü: Yeni materialın mənimsənilməsi |
| Dərsin məqsədi və tapşırıqları: Hellouin bayramı ilə bağlı keçmiş biliklərin nümayişi və yeni məlumatlarla tanışlıq, Pear Deck platforması və Powerpoint proqramı vasitəsilə hazırlanmış çalışmalar |
| Təhsil formaları: Qruplarla iş |
| Tədris metodları: Kommunikativ dil təlimi, BİBÖ (KWL) metodu, yazılı “dəyirmi masa” |
| Dərsin təşkili forması: İnteraktiv forma |
| Resurslar: Seesaw, Google, Peardeck, Powerpoint təqdimatı |

Təşkil etdiyimiz eksperimental dərsin əsas məqsədi dərs müddətində maksimum dərəcədə yeni pedaqoji texnologiyaların tətbiqi vasitəsilə ingilis dilindən ünsiyyət vasitəsi kimi istifadəni təşkil etmək və ənənəvi formada aparılan dərsdən nə qədər fərqli nəticələr ortaya qoya biləcəyimizi göstərmək idi. Dərs prosesini kommunikativ dil təlimini tətbiq etməklə təşkil etdik. Qarşıya qoyduğumuz əsas məqsəd şagirdlərdə kommunikativ səriştənin aspektlərini mümkün qədər inkişaf etdirmək idi. Əsas çalışmalara keçməzdən əvvəl *Seesaw* platformasındakı resurslar vasitəsilə müəyyən qədər tapmacaya bənzəyən bir didaktik oyun təşkil etdik. Bu, asan bir tapmaca olsa da, şagirdlərin diqqətini dərsə cəlb etməkdə və motivasiyalarını yüksəltməkdə olduqca effektiv idi. Dərsdə interaktivliyi təmin etmək üçün *Pear Deck* platformasından istifadə etməklə dərsin mövzusunu ətraflı şəkildə əhatə edən çalışmalardan ibarət Powerpoint təqdimatı hazırlamışdıq. Onlayn platformanın köməyi ilə təşkil edilmiş bu tapşırıq qiymətləndirmə məqsədi daşımırdı, burada əsas məqsəd şagirdləri sonrakı müzakirəyə hazırlamaq idi.

Təqdimatdan sonrakı müzakirə 15 dəqiqə davam etdi. Şifahi müzakirənin sonlarında hər şagirddən elektron şəkildə *BİBÖ (KWL) cədvəli* hazırlamasını və öz biliklərini "what I **know**", "what I **want** to know", "what I **learned**" (bilirəm, istəyirəm bilim, öyrəndim) başlıqları altında qruplaşdırmasını istədik. Son olaraq, yazılı "dəyirmi masa" metodunu *Google Jamboard* vasitəsilə həyata keçirdik. İki qrupa ayırdığımız şagirdlərdən Hellouin bayramı ilə bağlı bildikləri sözləri vərəqdə qeyd etmələrini istədik. Dərsin sonuna yaxın daha aktiv şagirdləri qiymətləndirdik. Qeyd etmək istərdik ki, bu dərs olduqca maraqlı və səmərəli keçdi, eyni zamanda dərs prosesinin interaktivliyi olduqca yüksək idi. Eksperimental tədrisin nəticəsini daha aydın və şəffaf şəkildə görmək üçün üç həftə ərzində kontrol və eksperimental siniflərdə ingilis dilini uyğun olaraq ənənəvi və fəal (rəqəmsal pedaqoji texnologiyalardan istifadə etməklə) tədris formalarında davam etdirdik. Qeyd edilmiş müddətin sonunda təşkil etdiyimiz dərsləri müqayisə etdik:

**Cədvəl 1.**

| Nailiyyətlər | Kontrol sinif | Eksperimental sinif |
|---|---|---|
| Şagirdlərin sayı | 13 | 13 |
| Əldə olunan bilik | 20-25% | 60-65% |
| Linqvistik komponent | 25-30% | 65-70% |
| Sosiolinqvistik komponent | 15-20% | 70-75% |
| Diskursiv komponent | 25-30% | 65-70% |
| Strateji komponent | 15-20% | 55-60% |
| Sosial-psixoloji komponent | 25-30% | 70-75% |

Bu tədqiqatda əldə etdiyimiz nəticələr göstərir ki, orta məktəbdə xarici dil tədrisində rəqəmsal texnologiyaların tətbiqi şagirdlərdə dil bacarıqlarının və kommunikativ kompetesiyanın komponentlərinin formalaşmasına və inkişafına, eləcə də onların dərsə motivasiyasının yüksəlməsinə və fəallığının artmasına müsbət təsir göstərmişdir.

## Ədəbiyyat

1. A.H.Əliyev. Müasir pedaqoji texnologiyalar və kimyanın tədrisində onlardan istifadənin metodikası. Bakı: "Mütərcim", 2009. 256 səh.
2. A.Mehrabov, Ə.Abbasov, Z.Zeynalov, R.Həsənov. Pedaqoji texnologiyalar. Bakı-2006.
3. A.Mehrabov. Müasir dərs: onun təşkili və gedişinə qoyulan əsas tələblər. "Təhsil problemləri" qəzeti, 2013, 31 iyul.
4. A.M.Nəzərov. Müasir təlim texnologiyaları. Dərs vəsaiti. ADPU nəşriyyatı. Bakı-2012. 103 səh.
5. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Azərbaycan məktəbi, 2013, №5.
6. Ə.N.Qurbanov, A.Z.Məmmədova, G.V.Şadlinskaya. Kimya tədrisi metodikası praktikumu. Ali məktəblər üçün dərs vəsaiti. Bakı, ADPU nəşriyyatı, 2014, 386 səh.
7. Hüseynzadə R. Pedaqogika. 2 cilddə. I cild. Bakı, 2013.
8. Veysova Z. Fəal (interaktiv) təlim. Müəllimlər üçün vəsait. Bakı, 2007. 149 səh.
9. Ellis, G. 2000. Teaching English to young learners: reflections on a decade (1990-2000). The British Council.
10. https://sharewithcare.wordpress.com/
11. https://web.seesaw.me/
12. https://www.edsurge.com/product-reviews/pear-deck-product
13. https://www.ericdigests.org/
14. https://www.teachingenglish.org.uk/
15. https://www.peardeck.com/